*UOT 37*

***Müseyib İbrahim oğlu İlyasov,***
*pedaqogika elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Dilşad Rəşad qızı Bayramova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN ÖZÜNÜHAZIRLIĞI

***Мусеиб Ибрагим оглы Ильясов,***
*доктор педагогических наук, профессор*
*Азербайджанский Государственный Педагогический Университет*

***Дильшад Рашад гызы Байрамова***
*Азербайджанский Государственный Педагогический Университет*

# САМОПОДГОТОВКА СТУДЕНТОВ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Museyib Ibrahim Ilyasov,***
*doctor of pedagogical sciences, professor*
*Azerbaijan State Pedagogical University*

***Dilshad Rashad Bayramova,***
*Azerbaijan State Pedagogical University*

# SELF-TRAINING OF STUDENTS IN HIGHER EDUCATION INSTITUTIONS

**Xülasə.** Məqalədə ali təhsil müəssisələrində tələbələrin müstəqil olaraq özünühazırlıq işlərinin mahiyyəti açıqlanmışdır. Ali təhsil müəssisələrində tələbələrin özünüinkişafı üçün pedaqoji dəstəyin olması vacib şərtlərdən biridir. Həmçinin pedaqoji dəstək tələbələrin optimal qərarlar verməsinə şərait yaradır.
***Açar sözlər:*** *özünühazırlıq, ali təhsil müəssisəsi, tələbə, tərbiyəçi-müəllim*

**Резюме.** В статье раскрывается сущность самостоятельной подготовки студентов в высших учебных заведениях. Педагогическая поддержка является одним из важных условий саморазвития студентов в высших учебных заведениях. Кроме того, педагогическая поддержка создает условия для принятия студентами оптимальных решений.
***Ключевые слова:*** *самоподготовка, высшие учебные заведения, студент, воспитатель-преподаватель*

**Summary.** In the article, the essence of independent self-training of students in higher education institutions is explained. Pedagogical support is one of the important conditions for students' self-development in higher education institutions. Also, pedagogical support enables students to make optimal decisions.
***Key words:*** *self-training, higher education institution, student, tutor-teacher*

Tələbənin fəaliyyətini təmin edən əsas tələblərdən biri onların müstəqil olaraq özünühazırlığıdır. Özünühazırlıq – tələbənin pedaqoji səmərəliliyini, təsir gücünü artırma qabiliyyətidir. Özünühazırlıq gələcək tərbiyəçi-müəllimin peşə dünyasına vahid yanaşmanın formalaşması məqsədini daşıyır. Özünühazırlıq tələbənin öyrənmə qabiliyyətini inkişaf etdirir. Özünühazır-

lıq tələbələrdə peşə şüurunun inkişafına, praktik peşə fəaliyyətinə cəlb olunmasına şərait yaradır. Tələbənin peşəyönlü hərtərəfli təhsil mühiti olmalıdır. Gələcək tərbiyəçi-müəllim təlimdə peşəkar standartların, dəyərlərin və davranışların daşıyıcısı kimi formalaşmalıdır. Gələcək tərbiyəçi-müəllim özündə müsbət keyfiyyətləri möhkəmləndirməli və fəaliyyətini daha əhəmiyyətli istiqamətdə aparmalıdır.

Tələbələrin bilikli və qabiliyyətli olması cəmiyyətin düzgün inkişafı deməkdir. Cəmiyyətin müasirləşməsi prosesi ali məktəbdə təlimin təşkili və nəticələrinə yeni vəzifələr qoyur. Ali təhsil müəssisələrində bu fərdiliyin qurulması dedikdə səriştəliliyinin formalaşdırılması, ünsiyyət qurma bacarığını inkişaf etdirilməsi, sosial rolların yerinə yetirilməsi kimi nəzərdə tutulur.

Gələcək tərbiyəçi-müəllimin özünühazırlığı onun özünüdərk fenomeninin dərk edilməsini göstərir. Tələbələrin müvəffəqiyyət əldə etməsi onun həvəsli, təşəbbüskar və aktiv fəaliyyəti olmasından asılıdır. Bundan əlavə və ən önəmlisi isə o, öz üzərində durmadan və həvəsdən düşmədən çalışmalıdır. Bu halda öyrənmək tələbələr üçün yük olmayacaq, onlar üçün yeni bir şey öyrənmək, müstəqil şəkildə kəşflər etmək, hər hansı peşəyə yiyələnmə bacarığına sahib olmaq, müsbət nəticələr əldə etmək sevincinə və uğura çevriləcəkdir. Gələcək tərbiyəçi-müəllim özünühazırlıq zamanı yaradıcılığının inkişaf etdirilməsi üzərində də çalışmalıdır. Gələcək tərbiyəçi-müəllim özünühazırlıq zamanı problemlərin ilk öncə nəzəri aspektlərini nəzərə almalıdır, o “özünü inkişaf etdirmə” , “səriştəli olmaq”, şəxsi peşəkarlıq”, “təhsil”, “səriştəli təhsil” anlayışlarını bilməli və onları genişləndirməyi bacarmalıdır.

Universitetlərdə Bolonya sisteminin həyata keçirilməsi məsələsindən sonra tələbələrin özünühazırlıq prosesinin rolu daha da gücləndi. Burada yalnız təhsil paradiqmasından özünütəhsil paradiqmasına keçid baş verdi. Universitetlərin tələbləri arasında tələbələrin özlərini müstəqil şəkildə inkişaf etdirilməsi göstərilməlidir. Ali təhsil müəssisələrində tələbə-müəllim münasibətləri, sosial inteqrasiya onların müstəqil yaradıcılığını inkişaf etdirir. Özünühazırlıq yalnız təhsilin davamlı olmasını deyil, müasir cəmiyyətdə baş verən köklü dəyişiklikləri də özündə cəmləşdirir. Özünühazırlıq dedikdə bir sıra keyfiyyətlər yaranır: müstəqil axtarış, ünsiyyət, xüsusi peşəkarlıq, təhliletmə və s. Əməkdaşlıq tələbələrin həyatında vacib rol oynayır. Gələcək tərbiyəçi-müəllim əməkdaşlıq edərək özünühazırlıq prosesini daha keyfiyyətli şəkildə yerinə yetirə bilər. Özünühazırlıq tələbələrin özözünə təhsili kimi həyata keçirilir. Gələcək tərbiyəçi-müəllimin özünühazırlığı azad düşüncə tərzini formalaşdırır. Ali məktəblərdə tələbə təlim zamanı öz müstəqil fikirlərini irəli sürərək yeni məlumatlar verə bilər, bu isə onun özünühazırlığının düzgün istiqamətdə irəliləməsindən asılıdır. Tədris fənləri tələbələrin özünühazırlıq prosesini təkmilləşdirməyə yardım edən əsas vasitələrdən biridir.

Ali təhsil müəssisələrində tələbələrin özünüinkişafı üçün pedaqoji dəstəyin olması vacib şərtlərdən biridir. Həmçinin pedaqoji dəstək tələbələrin optimal qərarlar verməsinə şərait yaradır. Tələbənin özünühazırlığından danışarkən qeyd etmək lazımdır ki, ali təhsil müəssisələrinin rolu burada böyükdür.

Gələcək tərbiyəçi-müəllimin özünühazırlığı onun həyat tərzinin yaradıcısı kimi özünü göstərir.

“Pavlov özünün gənclərə məşhur məktubunda deyirdi: “...öz işinizdə, axtarışlarınızda ehtiraslı olun.” Deyirlər ki, Turgenev iradəsindən asılı olmayaraq, yalnız daxili ehtirasın təsiri altında qələmə sarılırmış. Demək istəyirəm ki, yalnız bu özünühazırlıq tədbirlərindən sonra məsələnin ikinci tərəfinə - kitabla lüğətlə məşğul olmağa keçmək olar” (1).

Gələcək tərbiyəçi-müəllim özünühazırlıq prosesində özünün güclü və zəif yönlərini aşkarlamağı öyrənir. Tələbə müzakirələrdə iştirak etməli, təlimlərdən keçməli, psixoloji testlərdə iştirak etməlidir. Bu və buna oxşar bəzi proseslər tələbələrin özünühazırlığını düz istiqamətdə aparır.

Tələbələrin özünühazırlıq prosesinin şərtləri bunlardır:

1. Tələbələrin özünühazırlıq prosesinin informasiya ilə zəngin olması;
2. Tələbələrin özünühazırlıq prosesində aktiv ünsiyyətin olması;
3. Tələbələrin özünühazırlıq prosesində subyekt mövqeyinin möhkəmləndirilməsi;
4. Tələbələrin özünühazırlıq prosesində müsbət emosiyaların əhəmiyyətli olması;

5. Tələbələrin özünühazırlıq prosesində pedaqoji mexanizmlərin aktuallaşdırılması.

Gələcək tərbiyəçi-müəllimin özünühazırlıq prosesində vacib amillərdən biri də motivasiyadır. Tələbə özünə məqsədlər və hədəflər yaratmalı və onun ardınca getməlidir. Tələbə çoxməqsədli olmalı və sistematik şəkildə addımlamağı bacarmalıdır. Tələbənin özünühazırlığı onun nizamlı şəkildə özünü dəyişməsidir.

Tələbənin müəllim kimi formalaşması üçün öncə o, fərasətli, ağıllı, dürüst, gözüaçıq, mehriban, vətənpərvər, birgə işləmə bacarığı olmalıdır. Bunlara yiyələnmək üçün isə o, daima öz üzərində işləməlidir. Tələbə yaranmış problemin öhdəsindən gəlməyi bacarmalıdır. O, qoyulmuş problemin həlli üçün müxtəlif variantlar irəli sürməyi bacarmalıdır. Gələcək tərbiyəçi-müəllim fərziyyələr irəli sürməyi bacarmalıdır. Bu bacarıqlar isə təkcə ali təhsil müəssisələrində verilən təhsillə deyil, həmçinin, paralel olaraq, tələbənin müstəqil formada özünühazırlıq prosesində əldə edilir.

Gələcək tərbiyəçi-müəllimin özünühazırlığı 2 aspektdə özünü büruzə verə bilər. Birincisi, şəxsiyyətlə bağlıdır: özünəinam, nailiyyət motivasiyası və s. İkincisi idrakla əlaqədardır. Burada koqnitiv bacarıqlar əsas götürülür: məqsəd qoymaq bacarıqları, emal bacarıqları, özünüdərk, təhliletmə bacarıqları. Həmçinin özünühazırlıq zamanı tələbələrin öyrənmə bacarıqları inkişaf edir. Burada tələbələr əlavə təhsil almağı davam etdirməli, əsasən özü özünü idarə edəcək müstəqil şəkildə təhsilini davam etdirməli, cəmiyyətdə akademik, peşəkar, texnoloji inkişafa yaxından bələd olmağı bacarmalıdır.

Gələcək tərbiyəçi-müəllimin özünühazırlıq zamanı əldə etdiyi biliklər arasında tarazlıq olmalıdır.

Hər bir gələcək tərbiyəçi-müəllimin məqsədləri sırasında özünühazırlıq prosesində yaradıcı təfəkkürünün formalaşdırılması, onun müstəqil idrak fəaliyyətinin inkişaf etdirilməsi dayanır. Ona görə də tələbə müstəqil işinin təşkilində tədris-tərbiyə (auditoriya) prosesi birinci yeri tutur. Lakin bu təcrid olunmuş şəkildə deyil, auditoriyadankənar müstəqil işlərlə zənginləşir, tamamlanır. Bir-birini tamamlayan bu prosesdə auditoriya məşğələsində aşılanan tələbə müstəqil iş bacarıqları auditoriyadankənar müstəqil işin çətinlik çəkmədən yerinə yetirilməsinə kömək edir. Ali məktəbdə auditoriya və auditoriyadankənar proseslərdə İKT-dən istifadə etməklə tətbiq olunan müstəqil iş formalarından aşağıdakıları qeyd etmək olar:

1.Tədris ədəbiyyatından, internetdən və əlavə mənbələrdən istifadə etmək;

2.Seminar məşğələləri üzrə təqdimatlar hazırlamaq;

3.Kompüterdən istifadə etməklə laborator və praktik tapşırıqları icra etmək;

4.İstehsalat və pedaqoji təcrübədə kompüterdən və təlimin texniki vasitələrindən istifadə etməklə dərslərə hazırlaşmaq;

5.Tələbə elmi dərnəklərində fəaliyyət göstərmək;

6.Kurs və buraxılış işləri yazmaq üçün internet resursları ilə işləmək (2).

Ali təhsil müəssisələrində tələbələr öz vaxtlarından düzgün istifadə etməyi, tədris materialı ilə məhsuldar işləmək və görülən işin nəticələrinə nəzarət etmə qabiliyyətinə yiyələnməlidirlər. Universitetlərdə tələbələri özünühazırlıq prosesində uyğun mövzulara təşviq etmək, təhsil proqramı müəyyən etmək, pedaqoji və psixoloji dəstək verilməlidir. Tələbələrin yaradıcılığını inkişaf etdirmək üçün universitetlərdə yaradıcılıq komissiyaları yaradılmışdır. Bu isə gələcək tərbiyəçi-müəllimlərin gələcək təhsilinin daha yaxşı inkişafı deməkdir. Ali təhsil müəssisələri tələbələrin təklif və xahişlərini nəzərə almalıdırlar. Universitetlər təhsilsevərlərin rəğbətini qazanmalıdır.

Tələbələr ali təhsil müəssisələrində bir sıra çətinliklərlə də üzləşirlər. Bu çətinlikləri aradan qaldırmağın yolları bunlardır.

1.Tələbələrin təhsil almasında müəllimdən dərin nəzəri hazırlıq və ixtisası ilə bağlı bilgilər tələb edilir;

2.Tələbələrin fərdi və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır;

3.Tələbələrin adaptasiya prosesinə istiqamət verilməlidir.

Düzgün pedaqoji rəhbərlik, intizamlı təlim tələbələrin özünühazırlıq prosesinin inkişafına təsir edir. Ali təhsil müəssisələrində dərsin düzgün təşkil olunması üçün metodlardan istifadə olunur. Metodlar tələbələrdə inkişafetdirici, təhsilləndirici, nəzarətedici, korreksiyaedici, motivasiyalaşdırıcı funksiyalarını yerinə yetirir.

Gələcək tərbiyəçi müəllim özünühazırlıq bacarıqlarının formalaşdırılmasını təhlil edərkən o müəyyən etməlidir ki, bəzi fənlər onlara yalnız biliklər verir, amma bacarıqlar formalaşdırmır. Özünühazırlıq prosesində tələbə yalnız bilik deyil, həm də bacarıq verən fənlər ətrafında çalışmalıdır.

Təkcə müasir dövr deyil, cəmiyyətimizin gələcək inkişafı peşəkar və səriştəli müəllim hazırlığını nəzərdə tutan infrastrukturun və sistemin yaradılmasını tələb edir. Ölkədə ali pedaqoji təhsili inkişaf etdirmək və səriştəli müəllim hazırlığını təmin etmək məqsədilə bir sıra işlərin görülməsi bu baxımdan çox önəmlidir. Bunları, əsasən, aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ali pedaqoji təhsil müəssisələrinin müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi. Tədris prosesində onlardan gündəlik istifadə edilməsi mühitinin yaradılması.

2. Ali pedaqoji təhsil müəssisələrinin tədris planlarının, proqramlarının yeniləşdirilməsi və onların beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsi. Yeni təhsil texnologiyalarına əsaslanan tədris planı, proqramı və dərsliklərin tətbiqinə nail olunması. Proqramların praktik istiqamətinin gücləndirilməsi.

3. Pedaqoji prosesə məzmunu pedaqoji sistemlərin özünütəşkilatlandırma nəzəriyyəsində, prinsiplərində və qanunauyğunluqlarında əks olunmuş pedaqoji bilik sahəsindən ibarət olan sinergetik yanaşmanın təmin olunması.

4. Pedaqoji təhsil sahəsində dünyada tanınmış ali məktəblərin təcrübəsinin öyrənilməsi və onların təcrübəsindən yaradıcılıqla istifadə edilməsi.

5. Ali pedaqoji təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin səviyyəsinin və ona nəzarətin gücləndirilməsi. Elmi-tədqiqat işlərinin daha kompetensiyalı, müasir mövzulara həsr olunması və onların praktik istiqamətini gücləndirməklə tətbiqinə nail olunması.

6. Pedaqoji yönümlü ali məktəb məzunlarının işlə təmin olunmasına pedaqoji dəstəyin verilməsi. (3, s. 39.)

**Problemin aktuallığı.** Ali təhsil müəssisələrinin ən mühüm uğurlarından biri və birincisi hazırlanan gələcək tərbiyəçi-müəllimlərin peşəkar və səriştəli olması, özünühazırlıq prosesinə dərində yiyələnməsi, təkcə öz ixtisasını deyil, onu tətbiqetmə bacarıqlarına malik olmasıdır. Təcrübə göstərir ki, gələcək tərbiyəçi-müəllimlərin bir çoxu yalnız öz ixtisas fənləri ilə məşğul olduqda lazımi bilik və bacarıqlara yiyələnmirlər. Nəticədə gələcək peşəsində müəyyən çatışmazlıqlar özünü göstərir.

**Problemin elmi yeniliyi.** Özünühazırlıq prosesində tələbələrin hər birinin maraq və inkişafının təmin olunması, özünühazırlıq prosesində bilik və bacarıqlara nail olunması, özünühazırlıq zamanı kommunikativliyin, səmərəliliyin, peşəkarlığın yüksəldilməsinə yönəldilməsi və s. kimi amillərin araşdırılması, bu istiqamətdə müəyyən tövsiyələrin hazırlanması təqdim olunan problemin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr bu sahədə mövcud olan bir sıra vacib məsələlərin həlli üçün praktik əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**

1. Zeynaloğlu, P. Təlim fəaliyyətinin psixoloji prosesi. -Bakı, 2017.
2. İlyasov, M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. / M. İlyasov. -Bakı: Elm və Təhsil, -2018.
3. Kazımov, N.M. Məktəb Pedaqogikası. / N.M. Kazımov. -Bakı, -2008.
4. Paşayev, Ə.X. Pedaqogika. / Paşayev Ə.X., Rüstəmov F.A. -Bakı: -Nurlan, -2007.

**E-mail:** bayramovadilshad97@icloud.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.fəls.dok.* **N.R. İsmayılova**
**Redaksiyaya daxil olub:** 27.02.2023